# Baharın ilk müjdəçisi - yalançı çərşənbə



**Təbiət yağışlı, küləkli payızdan, şaxtalı, qarlı qışdan keçərək addım-addım bahara yaxınlaşır… Payızda bağların, bağçaların son bəhəri yığılır. Ağacların yarpaqları tökülür. Yamacların yamyaşıl otları quruyur.**

Qış fəslində təbiət yuxuya gedir. İnsanlar onun yenidən canlanacağı, ağacların, otların yaşıl paltarını geyinəcəyi günlərin intizarını çəkir. Qədimdə insanlar qışın tez bitməsini, təbiətin oyanışını gözləyə-gözləyə onu üç hissəyə bölüb - Böyük çillə, Kiçik çillə və Boz ay adlandırıblar. Ulularımız qırx gün davam edən Böyük çilləni nisbətən mərhəmətli hesab ediblər. Onun ardınca gələn, iyirmi gün ömrü olan Kiçik çillə isə daha soyuq və sərt keçdiyi üçün onu təşvişlə qarşılayıblar. Dəli-dolu küləkləri ilə əsib-coşan Boz ayın gəlişi isə yazın yaxınlaşması deməkdir.

## Hər birinin öz mənası olan çərşənbə bayramları

Böyük ümidlər bəslədikləri baharın gəlişini səbirsizliklə gözləyən ulularımız onun yalnız ölkəmizə qədəm qoyduğu günü bayram etməyiblər. Onlar Novruz bayramına qədər olan dörd çərşənbənin hər birini təmtəraqla qeyd ediblər. Bu dörd çərşənbə bayramının hər birinin öz mənası, özünəməxsus adət-ənənələri var. Çərşənbə bayramları yaradılışın dörd mərhələsini - su, od, külək və torpağı təcəssüm etdirir.

Qədim zamanlardan insanlar Kiçik çillənin ortasında Xıdır Nəbi bayramı keçirirlər. Bərəkət rəmzi sayılan Xıdır Nəbi bayramı xüsusi mərasimlərlə qeyd olunur. Qovut çəkilir, qovurğa qovrulur. Xıdır Nəbi bayramından sonra təbiət tədricən oyanmağa başlayır.

Xıdır Nəbi bayramından sonra yalançı çərşənbə gəlir. Folklorşünas Məmmədhüseyn Təhmasib bu barədə bildirib: "Böyük bir səbirsizliklə yazın gəlməsini gözləyən qədim azərbaycanlı əkinçi Böyük çilləni yola saldıqdan sonra yerdə qalan bir ay iyirmi günü, yəni yeddi həftənin hər çərşənbəsini bayram edirdi. Bunlardan birinci üçünə "oğru üsgü", ikinci üçünə "doğru üsgü", sonuncusuna isə "ilin axır çərşənbəsi" deyirdi. Bu çərşənbələrin hərəsinin özünə görə adət və ənənələri, rüsumat və dəbləri var idi".

Məmmədhüseyn Təhmasib onu da yazıb ki, bu adət və dəblər qışın mümkün qədər tez çıxması üçün vaxtilə icra edilən sehr və əfsunların indi qismən unudulmuş, qismən də başqa təsirlərin nəticəsi olaraq qarışmış qalıqlarından ibarətdir: "Bu sehr və əfsunlar vasitəsilə qışın tez çıxması üçün altı çərşənbə hazırlıq görmüş xalq, nəhayət, son çərşənbə günü bir yerə toplaşaraq onu elliklə yola salır, yeni ili, yəni yazın ilk gününü isə elliklə bayram edir".

Folklorşünasın araşdırmalarından məlum olur ki, "oğru üsgü" adı altında qeyd etdiyi oğru (yalançı) çərşənbənin sayı üç olub.

## Yalançı çərşənbənin doğru xəbəri

Araşdırıcı Şakir Albalıyev isə hazırda bu çərşənbələrdən "doğru üsgü" adı ilə qeyd edilən üç çərşənbə və bir də sonuncu ilin axır çərşənbəsinin öz mərasim aktuallığını qoruyub bayram şəklində el arasında qeyd olunduğunu yazıb. Bildirib ki, bir də bəzi bölgələrdə yerdə qalan "oğru üsgü" adlandırılan üç çərşənbədən biri ümumiləşdirilmiş halda "yalançı çərşənbə" adı altında zəif şəkildə keçirilir: "Əgər "doğru üsgü" ifadəsini doğruçu - həqiqi çərşənbələr kimi qəbul edib, hazırda böyük təmtəraqla keçirdiyimiz su, od, yel və torpaq çərşənbələri olduğunu nəzərə alsaq, onda "oğru üsgü" istilahının da doğrunun əks qütbü olan yalan, yalançı kəlməsi ilə əvəz olunduğu qənaətinə gələrik".

Əcdadlarımız hər bir ayin və mərasimləri qışın daha rəhimli olması, soyuğunu, sazağını, şaxtasını, qarını mümkün qədər az etməsi üçün icra ediblər. Bu inanclarla qədim zamanlardan insanlar ayinlər, mərasimlər keçirib, baharın gəlişinə hazırlıq görüblər.

Tədqiqatçılar Novruz bayramını özünəqədərki ilaxır çərşənbə bayramlarından təcrid edilmiş şəkildə araşdırmağı məqsədəuyğun hesab etmirlər.

Qeyd etdiyimiz kimi, ölkəmizin bir sıra bölgələrində doğruçu çərşənbə sayılan dörd çərşənbədən öncə yalançı çərşənbələr də qeyd olunub. Araşdırıcılar bu qənaətdədirlər ki, yalançı çərşənbə doğruçu çərşənbənin gəlişinə zəmin hazırlayır.

Novruza qədər bayram edilən dörd ilaxır çərşənbələri kimi yalançı çərşənbədə də ocaq qalanır. Ancaq alovu gur olmur. Həmin gün axşamüstü insanlar öz həyətlərində səssiz-küysüz, azacıq saman, küləş yandırırlar. Adət-ənənəyə görə, yalançı çərşənbənin alovu aldadıcı olur. Evlərdə adi günlərdən fərqlənməyən süfrələr qurulur. Yəni yalançı çərşənbədə doğruçu çərşənbələrdə olduğu kimi, bayram süfrəsi açılmır, xüsusi yeməklər bişirilmir, şirniyyatlar hazırlanmır.

Amma adına yalançı çərşənbə deyilsə də, gətirdiyi xəbər doğru olur. Yalançı çərşənbədən sonra insanlar baharın astanada olduğunu hiss edirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-18 fevral (№36).- S.11.